# AzAK P014

Yenilənmə № 02
Qüvvəyə minmə tarixi: 03.07.2024

## Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurum tərəfindən akkreditasiya nişanından istifadəyə dair prosedur

## 1. Məqsəd

Bu prosedur uyğunluğu qiymətləndirən qurumların akkreditasiya olunduqlarını bəyan etmək məqsədi ilə akkreditasiya nişanından istifadə qaydalarını izah etmək məqsədi daşıyır.

## 2. Əhatə dairəsi

Bu prosedurda malın (xidmətin, işin), onunla əlaqəli prosesin, istehsal metodunun, idarəetmə sisteminin, fiziki şəxsin texniki reqlamentdə və digər normativ hüquqi aktda, müvafiq standartlaşdırma sahəsində normativ sənəddə müəyyən olunmuş tələblərə uyğunluğunun qiymətləndirilməsini təmin edən və "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxs (AzAK) tərəfindən akkreditasiya olunmuş təşkilatlar (dövlət orqanları), hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən AzAK-ın akkreditasiya nişanından istifadəsi ilə bağlı qaydalar izah edilir.

## 3. İstinadlar

3.1. "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanunu (bənd 8.2);

3.2. "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 iyul 2015-ci il tarixli 252 nömrəli qərarı (5 nömrəli əlavə);

3.3. "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyun 2018-ci il tarixli 264 nömrəli qərarı;

3.4. AZS ISO/IEC 17011:2020 - "Uyğunluğun qiymətləndirilməsi. Uyğunluğun qiymətləndirilməsi qurumlarını akkreditasiya edən orqanlara tələblər" standartı (bənd 4.3);

3.5. AZS ISO/IEC 17025:2020 - "Sınaq və kalibrləmə laboratoriyalarının səlahiyyətliliyinə dair ümumi tələblər" standartı;

3.6. AZS ISO/IEC 17020:2021 - "Uyğunluğun qiymətləndirilməsi. İnspeksiya həyata keçirən müxtəlif növ orqanların fəaliyyətinə dair tələblər" standartı;

3.7. AZS ISO/IEC 17065:2021 - "Uyğunluğun qiymətləndirilməsi. Məhsulların, proseslərin və xidmətlərin sertifikatlaşdırılmasını aparan orqanlara dair tələblər" standartı;

3.8. AZS ISO/IEC 17021-1:2021 - "Uyğunluğun qiymətləndirilməsi. İdarəetmə sistemləri üzrə audit və sertifikatlaşdırma xidmətlərini göstərən orqanlara dair tələblər" standartı;

3.9. AZS ISO/IEC 17024:2014 - "Uyğunluğun qiymətləndirilməsi. Heyətin sertifikatlaşdirilmasini həyata keçirən orqanlara ümumi tələblər" standartı;

3.10. ISO 15189 – "Tibbi laboratoriyalar — Keyfiyyət və bacarıq tələbləri" standartı;

3.11. ISO/IEC 17043:2023 – "Uyğunluğun qiymətləndirilməsi. Səriştəlilik sınaqlarına dair ümumi tələblər" standartı;

3.12. ISO 17034:2016 – "İstinad materialı istehsalçılarının səriştəliliyinə dair ümumi tələblər" standartı;

3.13. ISO/IEC 17029:2019 – "Uyğunluğun qiymətləndirilməsi. Validasiya və verifikasiya

orqanlarına dair tələblər və ümumi prinsiplər” standartı;

3.14. EA-3/01 – “Akkreditasiya üzrə Avropa Əməkdaşlığı Təşkilatının (EA) Akkreditasiya nişanlarının, loqotiplərinin və digər akkreditasiya statusu bəyanatlarının istifadəsi şərtləri və akkreditasiya orqanınının EA Çoxtərəfli Saziş (MLA) statusuna istinad” sənədi;

3.15. AzAK-ın loqodan, akkreditasiya nişanından və digər atributlardan istifadəyə dair təlimatı (brandbook).

3.16. ILAC P8 - ILAC Qarşılıqlı Tanınma Sazişi (Saziş): Akkreditasiya nişanlarının istifadəsi və akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən akkreditasiya statusunun bəyan edilməsi üçün əlavə tələblər.

## 4. Təriflər

AzAK-ın Loqotipi: AzAK-ın ictimai identifikasiyanı müəyyən etmək, akkreditasiya proqramlarını tanıtmaq, təşviqini dəstəkləmək məqsədi üçün istifadə olunur. AzAK-ın adlı və adsız loqotipi vardır (şəkil 1).

AZƏRBAYCAN AKKREDİTASİYA MƏRKƏZİ

AZERBAIJAN ACCREDITATION CENTER

Şəkil 1: AzAK loqotipi

AzAK-ın akkreditasiya nişanı: AzAK tərəfindən akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumun akkreditasiya olunduğunu bəyan etmək məqsədi ilə istifadə etdiyi nişan.

Akkreditasiya nişanında akkreditasiya mövzusu olan standartın işarəsi və akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumun akkreditasiya attestatının qeydiyyat nömrəsi qeyd olunur (şəkil 2).




Şəkil 2: Akkreditasiya nişanı

Akkreditasiya nişanının təsviri ölçülərində hündürlüyün eninə nisbəti 1:2 olmalıdır. Akkreditasiya nişanının təsviri ölçülərindən asılı olmayaraq dəqiq görünən formada əks olunmalıdır və minimum ölçüsü şəkil 2-də verilmişdir.

Akkreditasiya nişanının təsviri müxtəlif texnoloji üsullarla yerinə yetirilə bilər.

Uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin nəticəsinə dair tərtib edilmiş sənəddə akkreditasiya nişanının rəngli formasından istifadə olunmalıdır. Lakin rəngli formanın istifadə

mümkün olamayan hallarda akkreditasiya nişanının monoxrom versiyasından da istifadə edilə bilər. Daha ətraflı bu qaydaların 10-cu bəndində məlumat verilmişdir.

AZS ISO/IEC 17025 standartı üzrə akkreditasiyadan keçmiş sınaq və kalibrləmə laboratoriyalarının akkreditasiya nişanlarında fəaliyyət sahəsi aydın qeyd edilməlidir. Nümunə aşağıda verilmişdir:




Şəkil 3: AzAK akkreditasiya nişanı

## 5. Ümumi müddəalar

5.1. Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurum akkreditasiya nişanından akkreditasiya olunduğu fəaliyyət sahəsinə uyğun istifadə etməlidir.

5.2. Akkreditasiya nişanından bilavasitə uyğunluğun qiymətləndirilməsi fəaliyyətinə dair tərtib olunmuş sənədlərdə istifadə olunmalıdır.

5.3. Uyğunluğun qiymətləndirilməsi qurumunun blanklarında və reklam materiallarında akkreditasiya nişanından istifadə oluna bilər.

5.4. Uyğunluğun qiymətləndirilməsi qurumunun personalının vizit kartlarında akkreditasiya nişanından istifadə oluna bilməz.

5.5. Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurum akkreditasiya nişanından akkreditasiya attestatının qüvvədə olduğu müddətdə istifadə etməlidir və attestatın etibarlılıq müddəti başa çatan gün nişandan istifadə dayandırılmalıdır.

5.6. Akkreditasiya nişanının təsviri ölçülərində hündürlüyün eninə nisbəti 1:2 olmalıdır. Akkreditasiya nişanı təsviri ölçülərindən asılı olmayaraq dəqiq görünən formada əks olunmalıdır.

5.7. Akkreditasiya nişanının təsviri müxtəlif texnoloji üsullarla yerinə yetirilə bilər.

5.8. Uyğunluğun qiymətləndirilməsi fəaliyyətinin nəticəsinə dair tərtib edilmiş sənəddə akkreditasiya nişanının rəngli formasından istifadə olunmalıdır.

5.9. Akkreditasiya nişanı uyğunluğu qiymətləndirən qurumun loqosu və ya əmtəə nişanı ilə birgə istifadə oluna bilər. Bu zaman nişanların təsviri yanaşı yerləşdirilməlidir.

5.10. Xarici ölkənin uyğunluğu qiymətləndirən qurumu Azərbaycan Respublikasında akkreditasiyadan keçdikdə və ya fəaliyyətini razılaşdırdıqda, Azərbaycan Respublikasında həyata keçirdiyi fəaliyyətində milli akkreditasiya nişanından istifadə edir. Milli akkreditasiya

nişanı ilə yanaşı, həmin qurum xarici akkreditasiya nişanından istifadə etməkdə sərbəstdir.

## 6. AzAK akkreditasiya nişanının forması və istifadəsi

6.1. AzAK-ın akkreditasiya nişanı bu bölmədə ətraflı təsvir olunan formada, ölçüdə və rəngdə istifadə edilməlidir.
6.2. Uyğunluğun qiymətləndirilməsi qurumu akkreditasiya olunduqda, akkreditasiya mövzusu olan standartın işarəsi və təşkilatın akkreditasiya attestatının qeydiyyat nömrəsi Şəkil 2-də göstərildiyi kimi mərkəzləşdirilmiş şəkildə AzAK-ın loqosunun altında yerləşdirilməlidir.
6.3. AzAK akkreditasiya nişanı A4 ölçüsündən böyük olmayan material üzərində çap olunursa, onun minimum ölçüsü qorunmalıdır. Nişan daha böyük ölçülü material üzərində çap olunarsa, AzAK-dan elektron qaydada alınmış uyğun ölçülü nişan istifadə edilə bilər.
6.4. Akkreditasiya olunmuş təşkilatlar bu prosedurda verilmiş eyni formatda öz replika nişan nüsxələrini hazırlamalıdırlar.
6.5. AzAK-ın akkreditasiya nişanının ölçüsü, rəngi və formatı haqqında ətraflı məlumat aşağıda verilmişdir:
6.6. Nişan daxilində Logonun minimum ölçüsü 12 mm olmalıdır (şəkil 2).
6.7. Akkreditasiya olunmuş qurumun loqosu və adı olan sənəddə AzAK-ın akkreditasiya nişanı istifadə edilə bilər;
6.8. Akkreditasiya olunmuş qurumun loqosu və adından daha çox gözəbatan olmamalıdır.
6.9. Akkreditasiya nişanı qabartma formasında və holoqram şəklində istifadə edilə bilər.
6.10. AzAK-ın loqotipi təhrif olunmamalıdır.
6.11. Akkreditasiya nişanının formasında dəyişiklik edilməməlidir.
6.12. Akkreditasiya nişanının istifadə olunacağı sənəd fonunu rəngli olduğu halda, Akkreditasiya nişanı aşağıdakı qaydada istifadə edilməlidir (Şəkil 4). Nişanın müxtəlif fonlarda yerləşdirilməsində əsas prinsip onun oxunaqlı olmasını təmin etməkdir:




Şəkil 4: AzAK akkreditasiya nişanının müxtəlif fonlarda yerləşdirilməsi

## 7. AzAK-ın akkreditasiya nişanından təşviqat/reklam materiallarında istifadə olunması

7.1. AzAK akkreditasiya nişanı akkreditasiya olunmuş qurumun statusu ilə bağlı anlaşılmazlığa səbəb ola biləcək şəkildə istifadə edilməməlidir.
7.2. Bu prosedurda göstərilən şərtlərə cavab verməsi şərti ilə AzAK tərəfindən akkreditasiya olunmuş qurumlar müvafiq təşviqat/reklam materiallarında AzAK akkreditasiya nişanından istifadə etmək hüququna malikdirlər.
7.3. Akkreditasiya nişanı akkreditasiya olunmuş qurumun işçiləri üçün çap edilmiş vizit kartlarında istifadə edilə bilməz. Vizit kartlarında qurumun akkreditasiyasına istinad edilə bilməz.
7.4. Akkreditasiya nişanının istifadə olunacağı hər hansı materialdan (dəftərxana ləvazimatları və s.) istifadə etməzdən əvvəl akkreditasiya olunmuş qurum müvafiq materialla bağlı AzAK-ın razılığını almalıdır.
7.5. Akkreditasiya nişanı, AzAK-ın akkreditasiya nişanı olan reklam materialları istisna olmaqla, bu prosedurda göstərilən şərtlərə uyğun olaraq reklam kampaniyası çərçivəsində nəqliyyat vasitələrində istifadə edilə bilməz.
7.6. Akkreditasiya nişanı binalarda və bayraqlarda istifadə edilə bilməz.
7.7. AzAK-ın akkreditasiya nişanı akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumun binasının daxili divarlarında, qapılarında və ya yarmarkalarda reklam stendlərində istifadə oluna bilər.
7.8. AzAK-ın akkreditasiya nişanı AzAK-ın hər hansı məhsul və ya xidməti dəstəklədiyini və ya tövsiyə etdiyini ifadə edə biləcək şəkildə istifadə edilməməlidir.
7.9. AzAK-ın akkreditasiya nişanı AzAK-ın akkreditasiya çərçivəsində sertifikatlaşdırma, sınaq, kalibrləmə, səriştəlilik sınaqları xidməti, standart nümunə istehsalı və inspeksiya fəaliyyətləri üçün məsuliyyət daşıdığını ifadə etmək üçün istifadə edilməməlidir.
7.10. AzAK tərəfindən akkreditasiya olunmuş bütün fəaliyyətlər AzAK-ın akkreditasiya nişanı olan istənilən sənəd və hesabatda aydın şəkildə göstərilməlidir.
7.11. Uyğunluq sertifikatında AzAK-ın akkreditasiya nişanı yalnız akkreditasiya olunmuş məhsulların sertifikatlaşdırması işləri çərçivəsində akkreditasiya olunmuş sertifikatlaşdırma orqanının loqotipi ilə birlikdə istifadə oluna bilər.
7.12. Akkreditasiya olunmuş laboratoriyalara verilən AzAK-ın akkreditasiya nişanı sınaqdan keçirilmiş material və ya məhsulun üzərinə vurulmamalı və məhsulun sertifikatlaşdırılması və ya təsdiqini nəzərdə tutmaq üçün istifadə edilməməlidir.
7.13. Akkreditasiya olunmuş inspeksiya orqanlarına verilən AzAK-ın akkreditasiya nişanı yoxlanılan material və ya məhsulun üzərinə vurulmamalı və məhsulun sertifikatlaşdırılması və ya təsdiqi üçün istifadə edilməməlidir.
7.14. AzAK tərəfindən akkreditasiya attestatı dayandırılmış qurum AzAK-ın akkreditasiya nişanının istifadə edildiyi sertifikatlar, hesabatlar və s. nəşrini dərhal dayandırmalıdır.
7.15. Akkreditasiya attestatı AZAK tərəfindən ləğv edilmiş qurum, AzAK-ın akkreditasiya nişanının istifadə edildiyi hər hansı sertifikat, hesabat, təşviq, reklam materialı və s. nəşrini dərhal dayandırmalıdır.
7.16. Akkreditasiya olunmuş qurumun birdən çox filialı varsa və bu filiallardan bəziləri akkreditasiya olunubsa, AzAK-ın akkreditasiya nişanı yalnız akkreditasiya olunmuş filiallar

tərəfindən istifadə edilməlidir. Bütün filiallarda ortaq bir forma istifadə edilərsə, müvafiq sənəddə AzAK-ın akkreditasiya nişanı istifadə edilə bilər, lakin hansı filialların akkreditasiya olunduğu AzAK-ın akkreditasiya nişanının yanında açıq şəkildə göstərilməlidir.

7.17. AzAK əvvəlcədən xəbərdarlıq etmədən bu prosedurda göstərilən şərtləri dəyişdirmək hüququnu özündə saxlayır.

## 8. Akkreditasiya olunmuş uyğunluğun qiymətləndirilməsi qurumları tərəfindən verilən hesabatlarda və ya sertifikatlarda "AzAK-ın akkreditasiya nişanı"nın istifadəsi ilə bağlı şərtlər

8.1. Akkreditasiya prosesi uğurla sona çatdıqdan sonra uyğunluğu qiymətləndirən qurumun Akkreditasiya attestatı ilə mükafatlandırılmalı və ona akkreditasiya sahəsinə uyğun olaraq akkreditasiya nişanı təqdim edilməlidir. Akkreditasiya nişanı AzAK tərəfindən hazırlanmalı, rəngli çap edilərək Akkreditasiya attestatına əlavə edilməlidir. Gələcəkdə düzgün istifadədə əminliyi təmin etmək üçün Akkreditasiya nişanı uyğunluğu qiymətləndirən quruma elektron formatda email vasitəsi ilə də göndərilməlidir.

8.2. AzAK-ın akkreditasiya nişanının kalibrləmə sertifikatında istifadə edilməsi üçün sertifikatdakı nəticələrin əksəriyyəti akkreditasiya olunmuş fəaliyyətlərin əhatə dairəsinə aid nəticələrdən ibarət olmalıdır. Akkreditasiyadan kənar nəticələr, akkreditasiya olunan nəticələrdən fərqləndirilməlidir.

8.3. Əgər AzAK tərəfindən akkreditasiya olunmuş laboratoriya/inspeksiya orqanı başqa bir akkreditasiya orqanı tərəfindən də akkreditasiya olunubsa, bu təşkilat hesabatlarında üstünlüyü AzAK-ın akkreditasiya nişanına verməli və ya AzAK-ın akkreditasiya nişanın; istifadə etmədən digər akkreditasiya orqanının akkreditasiya nişanından istifadə etməlidir.

8.4. Akkreditasiya nişanı ISO 17034 standartına uyğun olaraq AzAK tərəfindən akkreditasiya olunmuş istinad materialları istehsalçıları tərəfindən istehsal olunan istinad materiallarının etiketlərində istifadə oluna bilər. Akkreditasiya nişanı olan istinad materialları etiketlərində ISO 17034 tələblərinə əlavə olaraq aşağıdakı elementlərdə əks edilməlidir:

8.4.1. Akkreditasiya olunmuş istinad materialları istehsalçısının adı və akkreditasiya attestatının qeydiyyat nömrəsi;

8.4.2. Məhsul və partiya nömrəsi;

8.4.3. İstinad materialı sertifikatına istinad.

8.5. Əgər üzərində AzAK-ın akkreditasiya nişanı olan sınaq protokollarında, kalibrləmə sertifikatlarında, səriştəlilik sınaqları və laboratoriyalararası müqayisə sənədlərində və ya istinad materialı sənədlərində akkreditə olunmamış nəticələr də varsa akkreditasiya olunmuş təşkilatlar verdikləri hesabatın üz qabığına akkreditasiya sahəsinə daxil olan sınaq/kalibrləmə üsulları akkreditasiyanın əhatə dairəsinə daxil olmayanlardan fərqləndirmək üçün xəbərdarlıq qeydi əlavə etməlidirlər.

8.6. Bu qeyddə, məsələn, "*" işarəsi ilə qeyd olunan sınaqlar akkreditasiya çərçivəsində deyil" kimi bir ifadə ola bilər. Xəbərdarlıq qeydi asanlıqla oxuna bilən formada olmalıdır. Müvafiq olaraq, sınaq protokolunun və ya kalibrləmə sertifikatının daxili səhifələrində işarələmə aparılmalıdır ki, bu da akkreditasiya çərçivəsində olan nəticələrin akkreditasiya çərçivəsində olmayan nəticələrdən aydın şəkildə fərqlənməsinə imkan verəcəkdir.

8.7. Laboratoriyalar öz fikirlərini və ya şərhlərini dərc etdikləri AzAK akkreditasiya nişanlı

hesabatlarında ifadə edə bilərlər. Akkreditasiyanın əhatə dairəsinə daxil olmadığı hallarda, “Haqqında rəy verilən/şərh edilən nəticələr akkreditasiyanın əhatə dairəsinə aid deyil.” kimi xəbərdarlıq qeydi əlavə olunmalıdır.

8.8. AzAK tərəfindən akkreditasiya olmuş təşkilatlar tərəfindən akkreditasiya sahəsinə daxil olmayan inspeksiya hesabatları və ya sertifikatları üçün AzAK-ın akkreditasiya nişanı olan blanklardan istifadə edərlərsə həmin sənəddə inspeksiya hesabatlarının və ya sertifikatlarının akkreditasiya sahəsinə daxil olmaması barədə qeyd olmalıdır.

8.9. Eyni akkreditasiya sahəsində birdən çox akkreditasiyaya malik olan sertifikatlaşdırma orqanları öz sertifikatlarında və ya akkreditasiya olunduqları sahə ilə bağlı digər sertifikatlaşdırma sənədlərində onları akkreditasiya edən akkreditasiya orqanlarından ən azı birinin nişanından istifadə edə bilər.

8.10. Sertifikatlaşdırma orqanları sertifikatlaşdırdıqları qurumların AzAK-ın akkreditasiya nişanından istifadə qaydalarını yoxlamalıdırlar. Sertifikatlaşdırma orqanları onlardan xidmət alan qurumların AzAK akkreditasiya nişanından hansı şərtlərdə istifadə edəcəyini müəyyən etməlidir.

8.11. Laboratoriya AzAK tərəfindən akkrediasiya olunmuş idarəetmə sistemi sertifikatlaşdırma orqanı tərəfindən sertifikatlaşdırıldığı halda laboratoriya tərəfindən təşkil edilən sınaq, kalibrləmə, tibbi sınaq, səriştəlik sınağı və s. hesabatlarında və ya sertifikatlarında onlara verilən idarəetmə sistemlərinin sertifikatlaşdırma fəaliyyətləri ilə əlaqədar AzAK akkreditasiya nişanından istifadə etməməlidirlər.

8.12. Əgər akkreditasiya olunmuş inspeksiya orqanı subpodratçıdan əldə etdiyi nəticələrdən və öz akkreditasiya sahəsindəki nəticələri birgə olaraq istifadə etməklə hesabat hazırlamaq istəyirsə, hazırlanmış hesabatda və ya sertifikatda inspeksiya işlərinin hansı nəticələrinin subpodratçıdan alındığını aydın şəkildə göstərməlidir.

8.13. Akkreditasiya olunmuş və akkreditasiya olunmamış fəaliyyətlər üzrə birgə hesabat/sertifikat verildikdə, uyğunluğun qiymətləndirilməsi orqanı müştərinin akkreditasiya olunmuş və akkreditasiya olunmamış fəaliyyətləri asanlıqla ayırd edə bilməsini təmin etməlidir.

8.14. AzAK-ın akkreditasiya nişanı akkreditasiya sahəsinə daxil olmayan inspeksiya fəaliyyətləri üçün verilən sertifikatlarda/hesabatlarda istifadə edilməməlidir.

8.15. Uyğunluğu qiymətləndirən qurum səhvən akkreditasiya olunduğu sahədən kənarda AzAK akkreditasiya nişanını istifadə edərək hesabat/sertifikat verərsə, həmin hesabatı/sertifikatları dərhal geri çağırmalı və müştərilərini akkreditasiyaya istinad etməmələri barədə xəbərdar etməlidir. Bundan əlavə, uyğunluğu qiymətləndirən qurum oxşar vəziyyətlərin olub-olmaması ilə bağlı qiymətləndirmə/risk təhlili aparmalı, düzəldici fəaliyyət planlarını AzAK-a təqdim etməli və nəticələri vaxtında AzAK-a göndərməlidir.

8.16. Akkreditasiyası dayandırılmış, geri çağrılmış uyğunluğu qiymətləndirən qurum təsirə məruz qalmış müştərilərinə akkreditasiyanın dayandırılması, geri çağrılması, məhdudlaşdırılması və onun nəticələri barədə məlumat verməlidir. Bundan əlavə, akkreditasiyası geri çağrılmış və ya məhdudlaşdırılmış sertifikatlaşdırma orqanı akkreditasiya sahəsində verdiyi sertifikatları da geri çağırmalıdır.

8.17. AzAK-ın akkreditasiya nişanı əks edilən hesabatlar və ya sertifikatlarda AzAK tərəfindən bağlanmış Çoxtərəfli Tanınma Sazişlərinə (MLA/MRA) istinad edilə bilər. AzAK tərəfindən imzalanmış Çoxtərəfli Tanınma Sazişlərinə istinad etmək üçün hesabat və ya sertifikatdakı

fəaliyyət müvafiq müqavilə(lər) çərçivəsində olmalıdır. Bu istinadlarda təşkilatın akkreditasiya sahəsinə uyğun olaraq aşağıdakı formata əməl edilməlidir:

AzAK Akkreditasiya üzrə Avropa Əməkdaşlığı Təşkilatı (EA) və Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatı (ILAC), Akkreditasiya üzrə Beynəlxalq Forum (IAF) ilə [fəaliyyət adı] [hesabatların/sertifikatların tanınması haqqında Çoxtərəfli Tanınma Sazişi" imzalayıb].

8.18. Uyğunluğu qiymətləndirən qurum akkreditasiya sertifikatına uyğun olaraq yuxarıda qeyd olunan bölmələri doldurmağa borcludur.

8.19. Çoxtərəfli Tanınma Sazişinə istinad təşkilatın statusunun yanlış anlaşılmasına səbəb ola biləcək şəkildə istifadə edilməməlidir.

8.20. Akkreditasiya olunmuş idarəetmə sistemi sertifikatlaşdırma orqanları, hazırladıqları sertifikatlarda AzAK akkreditasiya nişanının yanında (solunda və ya sağında və ya üstündə və ya altında) AzAK-ın sənədlərinin tanınması üçün QR koduna (20X20 mm ölçüsündən az olmamaq şərtiylə) aşağıdakı formada yer verilməlidir. AzAK-ın icazəsi alınmaq şərti ilə digər istifadə formaları da tətbiq oluna bilər.




Şəkil 8: AzAK akkreditasiya nişanının AzAK-ın sənədlərinin tanınması üçün QR kod ilə erləşməsi

8.21. Uyğunluğu qiymətləndirən qurumların müştəriləri akkreditasiya nişandan istifadə edə bilməzlər. Uyğunluğu qiymətləndirən qurumlar müştərilərinin akkreditasiya nişandan istifadə etmələrinin qarşısını almaq üçün tədbirlər görməlidirlər.

## 9. Akkreditasiyaya yazılı istinad

9.1. Akkreditasiya nişanı akkreditasiya sahəsində fəaliyyət həyata keçirildikdə, akkreditasiya sahəsində verilən hesabatlarda və sertifikatlarda göstərilir. AzAK tərəfindən akkreditasiya olunmuş qurumlar akkreditasiyaya istinad üçün AzAK akkreditasiya nişanı əvəzinə akkreditasiyaya yazılı istinad etmək istədikdə, bunu aşağıdakı formatda uyğun etməlidirlər:

[Fəaliyyət sahəsinin adı] kimi fəaliyyət göstərən [uyğunluğu qiymətləndirən qurumun adı] AzAK tərəfindən [standartın adı və tarixi] standartına uyğun olaraq [akkreditasiya attestatının qeydiyyat nömrəsi] ilə akkreditasiya edilmişdir.

9.2. Uyğunluğu qiymətləndirən qurum akkreditasiya attestatına uyğun olaraq yuxarıda qeyd olunan bölmələri doldurmalıdır.

9.3. AzAK-ın akkreditasiya nişanından istifadə qaydaları akkreditasiyaya yazılı istinadlar üçün

də etibarlıdır. AzAK-ın akkreditasiya nişanının istifadəsinə icazə verilmədiyi hallarda, akkreditasiyaya yazılı istinad da edilə bilməz.

9.4. Akkreditasiya olunmuş qurumun statusu haqqında anlaşılmazlığa səbəb ola biləcək şəkildə akkreditasiyaya istinad edilməməlidir.

## 10. AzAK-ın loqotipi və AzAK-ın akkreditasiya nişanı - əlavə təsvirlər və qaydalar

10.1. AzAK loqosunun proporsiyaları və ətrafındakı boş məsafənin saxlanılması qaydası







10.2. Akkreditasiya nişanının ətrafındakı boş məsafənin saxlanılması qaydası




10.3. Akkreditasiya nişanının monoxrom veriyaları






## 11. AzAK-ın əmtəə nişanı şəhadətnaməsi.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən “Azərbaycan Akkreditasiya Mərkəzi” Publik Hüquqi Şəxsə verilmiş 13.02.2023-cü il tarixli 2023 1548 nömrəli Əmtəə Nişanı Şəhadətnaməsi. Əmtəə nişanının qeydiyyatının qüvvədə olma müddəti: 13.02.2033.



Azərbaycan Respublikası
Əqli Mülkiyyət Agentliyi

Şəhadətnamə

ƏMTƏƏ NİŞANI

N 2023 1548

AzAK
AZƏRBAYCAN AKKREDİTASİYA MƏRKƏZİ

*Əmtəə nişanının sahibi:* **"AZƏRBAYCAN AKKREDİTASİYA MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXS, AZ1029, Bakı şəhəri, Nərimanov rayonu, Elçin İsaqzadə qəsəbəsi, 7-ci köndələn (AZ)**

*İddia sənədinin nömrəsi:* **2023 00502**
*İlkinlik tarixi:* **13.02.2023**
*Əmtəə nişanının qeydiyyatının qüvvədə olma müddəti:* **13.02.2033**
*ƏXTB üzrə siniflər:* **01, 02, 03, 04, 05, 06, 07, 08, 09, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29, 30, 31, 32, 33, 34, 35, 36, 37, 38, 39, 40, 41, 42, 43, 44, 45**
*Dövlət reyestrində qeyd olunub:* **19.05.2023**

**İdarə Heyətinin sədri** **Kamran İmanov**

## 12. Prosedurda edilmiş dəyişikliklər

| Dəyişiklik №si | Səhifə №si | Dəyişikliyin tarixi | Dəyişiklik səbəbi |
|---|---|---|---|
| 01 | Bütün | 19.10.2023 | Prosedur akkreditasiya nişanı ilə bağlı beynəlxalq və yerli tələblərə uyğunlaşdırıldı |
| 02 | 2, 3 | 03.07.2024 | ISO/IEC 17043 standartının ili yeniləndi; ILAC P8 - ILAC Qarşılıqlı Tanınma Razılaşması (Razılaşması): Akkreditasiya nişanlarının istifadəsi və akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən akkreditasiya statusunun bəyan edilməsi üçün əlavə tələblər- sənədi istinadlar siyahısına əlavə edildi |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |